# Londonda "Azıx mağarası - Azərbaycan ərazisində ən qədim yaşayış məskəni" kitabının təqdimatı

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı və Azərbaycanın Böyük Britaniyadakı Səfirliyinin dəstəyi ilə Londonda Beynəlxalq Kitab Sərgisi çərçivəsində "Azıx mağarası - Azərbaycan ərazisində ən qədim yaşayış məskəni" kitabının təqdimat mərasimi keçirilib.**







Kitab tarix elmləri doktoru, professor Əsədulla Cəfərovun həmmüəllifliyi ilə hazırlanıb və nazirliyin dəstəyi ilə yenicə ingilis dilində nəşr olunub. Tədbirdə diplomatlar, alimlər, media nümayəndələri və tarixə maraq göstərən qonaqlar iştirak ediblər.

Təqdimat zamanı çıxış edən professor Əsədulla Cəfərov Azıx mağarasının təkcə Azərbaycan deyil, bütün dünya elmi üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. O, 1960-cı illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Paleolit Arxeoloji Ekspedisiyasının rəhbəri, görkəmli arxeoloq Məmmədəli Hüseynovun rəhbərliyi ilə Qarabağ ərazisində aparılan tədqiqatlar nəticəsində bu mağaranın kəşf edildiyini bildirib.

Azıx mağarasının yerləşdiyi Quruçay vadisinin qədim insanların məskunlaşması üçün əlverişli təbii-coğrafi mühitə malik olduğunu qeyd edən professor, burada aşkar edilmiş daş alətlər, heyvan qalıqları və insan çənə sümüyü kimi mühüm tapıntıların erkən insanların həyat tərzini və inkişafını öyrənmək baxımından əvəzsiz mənbə olduğunu vurğulayıb.

O, çıxışında Azıx mağarasının tədqiqinin üç əsas mərhələyə bölündüyünü və bu çərçivədə əldə olunan elmi nəticələrin beynəlxalq elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirildiyini bildirib. Aparılan beynəlxalq tədqiqatlar nəticəsində bu ərazidə yaşayan insanların 2-2,5 milyon il əvvəl məskunlaşdığının sübut edildiyini qeyd edib.

Təqdimat mərasimində bu nəşrin təkcə Azərbaycan tarixinin deyil, eyni zamanda dünya paleoantropologiyası və arxeologiyasının öyrənilməsi baxımından vacib mənbə olduğunu bildiriblər. Kitabın UNESCO səviyyəsində təqdim edilməsinin və bu mövzuda geniş beynəlxalq əməkdaşlığın davam etdirilməsinin vacibliyi qeyd edilib.

Tədbirin sonunda iştirakçılar kitabla tanış olub və müəllifə suallar ünvanlayıblar. Daha sonra kitabın imzalanma mərasimi də keçirilib. Azərbaycan tarixi və arxeologiyasına böyük maraq göstərən qonaqlar professor Əsədulla Cəfərovun imzası ilə kitab əldə ediblər. Xüsusilə Banqladeş, Cənubi Koreya, Səudiyyə Ərəbistanı, Türkiyə, Böyük Britaniya və Çin kimi ölkələrdən olan qonaqlar nəşrə böyük maraq göstəriblər.

Elm .- 2025.- 14 mart(№10).- S.8.